# CƏMİL CƏMİLBƏYLİ

**Bakı Dövlət Universiteti Filologiya fakültəsinin Filologiya (Azərbaycan dili və ədəbiyyatı) ixtisası üzrə IV kurs, Fl-099 qrup tələbəsi.**

************************

Sürünürdü ayaqlarım,
Axır ki, yeridi, anam.
Ağlayırdı, səs elədin,
Gözlərim kiridi, anam.

Qara bəxtdə nə həvəsdi,
Yanıb - yanıb dedim bəsdi.
O yandan bir külək əsdi,
Külümü kürüdü, anam.

Dad verməz bu bağın barı,
Üzüm olmaz tağın barı.
Güvəndiyim dağın qarı,
Bu səhər əridi, anam.

Yolçuyam, yola düşmüşəm,
Bir qilü qala düşmüşəm.
Gülməli hala düşmüşəm.
Nə desən, yeridi, anam.

************************

Məndən keçib sənə dəyməz,
Qaçma bu daşdan, qadası.
Hələ çox daş görəcəksən,
Qorxma bu başdan, qadası.

Yıxılırsan, dizin dəyir,
Yaralayır qollarını.
Bir gün üst - üstə yığılıb,
Kəsə bilər yollarını.

Özü dəymir sənə hələ,
Keçir balacalığına.
Bir gün böyüyür hər uşaq,

Keçəmmir qocalığına.

Dara düşsən, çağır məni,
Gorda da olsam, gələrəm.
Cənnətdə, ya cəhənnəmdə,
Harda da olsam, gələrəm.

Bir gün bağlasa yolunu,
Məni gözlə yaşa, balam.
Kəllə vurub dağıdaram,
Öyrəşmişəm daşa, balam.